# HƏYATIN ENERJİ MƏNBƏYİ

## "Qadın" poeması haqqında düşüncələr

*(Əvvəli ötən sayımızda)*

Məlahət Soltanqızı "Qadın" poeması ilə yəqin ki, hansısa yeni bir kəşf etmək niyyətində olmayıb. Sadəcə o, qadın mövzusunu düşünərkən başa düşüb ki, bu qadın anlamı xüsusi bir düşüncə məkanıdır, bəlkə də çoxlarına məlum olmayan bir məkandır. Hətta istər qadın olsun, istərsə də kişi. Bu qadının mahiyyətini heç qədərincə anlamır və dərk eləmir. Bax, Məlahət Soltanqızının yanaşmasında bu məqamı biz düzgün hesab edirik. Çünki bəşərin mənəvi sarsıntılarının qarşısının alınmasında, bəşərin mənəvi nizamının qorunmasında qadın sadəcə tərəf kimi iştirak etmir, o, sevgi mənbəyi kimi iştirak edir. Sevgi isə gücü məcbur edir ki, müəyyən məqamlarda güzəştə getsin, geri çəkilsin. Belə bir fikir var ki, sevgi hissindən məhrum olan hərbi liderin əlinə nüvə silahının açarı keçərsə o, bəşərdən qisas almaq istəyər. Çünki onun varlığında sevgi hissi yoxdur. Varlığında sevgi hissi olmayan hər hansı bir şəxsin təbiəti tam ola bilməz.

Məlahət Soltanqızı da demək tərəf müqabilinə sualla müraciət edir, özü də təkrar-təklar. Hər misranın sonunda, əvvəlində ritorikanı davam etdirir. Bununla da o, qarşı tərəfin - onunla müsahib olmaq istəyən, hətta polemika aparan tərəfi dialoqa çəkir, ona təkrar sual verir: "*Qadın kimdir? Düşündünmü? O, müqəddəs bir amalın yolçusudur O, sevincin,O, sevginin oğrusudur O, xoşbəxtdir bir baxışdan O, xoşbəxtdir bir sığaldan O, xoşbəxtdir bir balaca yuvadan Qadın dağdır, o enməzdir Ruhundakı qüvvətiylə yenilməzdir O anadır Öz oduyla bir ocağı isidir Məhəbbətin İşığında O, bir ömür yol gedir... Sevgin ilə işıq tutsan yoluna O yorulmaz, O əyilməz. Qadın sınmaz hər acıdan O güclüdür aslan kimi Vəfalıdır, o unutmaz yaxşılığı O yıxılmaz hər zərbədən O yıxılar, o əzilər, O qırılar bircə şeydən Xəyanətdən... Qadın dözməz xəyanətə... Ya gurlayar tufan kimi, Ya da susar... Qısılaraq namusuna, Çəkilər öz dünyasına... Çalxalanar dəniz kimi Xəyallara qərq olar Bulud kimi həm dolaşar, həm dolar Qadın dözər hər möhnətə, Qadın dözər hər zillətə, Qadın dözməz xəyanətə! Özü öz əlləriylə uçurar yuvasını, Qaraldar dünyasını, Qadın dözməz xəyanətə!*". Əziz oxucu, necə gözəl epitetlərdir. Qadınlığın ən ali, uca mərtəbəyə qədər tərənnümü var bu misralarda. Onun xoşbəxtliyi var, onun məmnunluğu var, gücü, qüdrəti var. Demək, əslində, öz müsahibinə, yəni ən başlıcası, belə demək mümkünsə, üz tutduğu qadına konkret və aydın şəkildə belə deyir: sən sevgini öz yolunçun işıq hesab elə. Əgər bu sevgi sənin yolun üçün işıq olsa, onda sən bu yollarda yorulub qalmazsan.

Məlahət Soltanqızının düşüncəsində yaratdığı qadın obrazı son dərəcə sədaqətlidir. O, ən ağır zərbələrdən belə özünü qorumaq gücündədir. Ancaq onun alacağı qorxulu bir zərbə var. Bu, xəyanət zərbəsidir. Qadın üçün bundan qorxulu, betər bir zərbə yoxdur. Bütün məqamlarda o, özünü səfərbər edə bilir, qoruya bilir, özünü hifz edə bilir. Və bütün hallarda o, bütövlüyünü qoruya bilir. Məhz bu döngələrdən keçə bilən qadını biz qəhrəman kimi tanıyırıq. Onun kimliyini uca tuturuq, ona yüksək dəyər verə bilirik. Çünki o, həm də dözümlülüyünə görə, qəhrəmanlığına görə nə qədər fərqlənirsə, həm də zərifdir, xəyanətə dözə bilmir, heysiyyətinin ucuz tutulmağına dözə bilmir. O istəyir ki, təbiətindəki gücü ilə birgə qavrasınlar, birgə duysunlar.

Bütün hallarda qadın həm də sevgi sahibi olmaqdan başqa, həm də anadır. Onun analıq gücü digər hisslərin hamısından daha yuxarıdadır. Onun varlığında, onun təbiətində bu hissi daha əhəmiyyət kəsb edir. Əgər bu hiss qadında olmasaydı, o, heç ana ola bilməzdi. Yəni qadının ən ali və ən uca missiyası onun ana olmaq missiyasıdır, körpə böyütmək vəzifəsidir. İstər qız balaları olsun, istər oğul. Ana üçün hər biri əzizdir. Qəribədir ki, hər bir peşə və sənətdə çəkilən zəhmətdən şikayət motivi var; hansı zəhmətdə şikayət mahiyyəti yoxdur - ritorik sualdır. Bəs o hansı zəhmətdir ki, onu çəkən özünə şərəf bilir, fəxr edir, qürur duyur. Bu, ana zəhmətidir. Övladını əllərinin üstündə səhərdən axşamacan oynadır. Gecəni qucağına alır, adicə bir qığıltısına görə də yuxudan oyanır. Halbuki insan yorğunluqdan yatanda belə, - bir misal var ki, top atılsa da oyanmır. Necə olur ki, ana uşağın qığıltısına da oyanır? Ananın psixoloji mühitini səfərbər edən onun fizioloji mühitidir. Süd vəzilərinə soğulan yem hər an onun qəbul olunmasını tələb edir. Ana isə uşaq yem istəmirsə, bunun üçün narahat olmur. Ancaq uşağın cüzi səsi ananın psixoloji və fizioloji mühitini oyadır. Ona görə də ana körpə uşağın səsinə həssas olur. Özgə vaxtı oyanmayan insan təbiəti həmin anda uşağın - öz uşağının səsinə həssaslıqla cavab verə bilir. Bütün bunları ona görə xatırlatdıq ki, bir ananın öz körpəsinə münasibəti, onun üçün çəkdiyi əziyyət əsgərin bir qarış vətənin azad elədiyi torpağın dəyərinə bərabərdir. Elə buna görə də ana məfhumu ilə hər hansı bir başqa məfhumun müqayisəsi yersizdir.

Əlbəttə, analıq missiyasının özü də xüsusi əhəmiyyət kəsb edir. Bu, gərək axıracan ödənilsin. Təkcə uşaq doğub böyütmək (formal şəkildə), əlbəttə formal şəkildə, hələ analıq deyil: "*Qadın da var körpəsini Gərəksiz bir əşya kimi atır... Bu dünyaya göz açmamış Bu dünyanın qoxusunu almamış Bir körpəni atıb gedir. Hara gedir? Hara qaçır? Bu dünyadan qaçmaq olar? Heç vicdandan qaçmaq olar? Öz körpəsin atıb gedir... Bəs analıq... Demək bu hiss Hər qadına hakim deyil! Unutmaqmı? Öz canını, öz qanını Unutmaqmı? Öz körpəsin atıb gedir... Qəlbi o an çırpınırmı? O, vicdana sahibmi? Bu qədərmi zordu həyat? Bir körpəni böyütməkçün Bir ana məhəbbəti Gərək açsın qol-qanad Qatlaşsın hər əzaba. O günahsız körpənin Bu həyata gəlişi Ancaq Allahın işi Allahın verdiyindən Hara qaçıb gedirsən!? Kimə qaçıb gedirsən!? Kimdən qaçıb gedirsən!? Getmə qadın! Sən anasan... Getdiyin yol söylə harda bitəcək? Getdiyin yol - yaratdığın bu mənzərə Zaman-zaman vicdanında bir ləkə Həyatında yaşadığın bir imtahan, Bir təhlükə! Sən qaçırsan... Uzaqlaşmaq... Elə bu an İstədiyin təkcə budur: O yavrunu atan zaman Səni kimsə görməsin... Kifayətmi? Bu yetərmi?*" Burada çox facianə, həm də ibrətli məqamlar yada salınır. Azdırmı uşağını bir əsgiyə bələyib hansısa bir küncə atıb onun götürüləcəyini gözləyən ana. Doğrudanmı beləsi anadır. Biz onu ana hesab etməkdə haqlıyıqmı? Ancaq dünyaya uşaq gətirdiyinə görə özünü bədbəxt, yazıq, kimsəsiz görə bilən hər hansı bir qadının təbiəti haraya qədər aydın ola bilər? Onun düşüncəsində özünə verdiyi sualların cavabı axıracan aydın ola bilərmi?

Bir sözlə, söhbət ondan gedir ki, qadın qeyri-qanuni olaraq dünyaya gətirdiyi uşağın saxlamaq məsuliyyəti üçün özündə güc hiss eləmir. Burada bir qədər mətləbdən kənara çıxmalıyıq. Hər bir qadın özünün arxasında cəmiyyətin gücünü hiss etməlidir. O qadın uşağı atır ki, o, arxasında cəmiyyətin gücünü hiss etmir. Onun düşüncəsinə görə cəmiyyət ucdan tutma olaraq onu qınaq obyektinə çevirəcək. Və bu zaman o, şübhəsiz uşaqdan imtina etmək yolu tutur.

Bu sualları nə qədər ritorik olsa da, Məlahət Soltanqızı "Qadın" poemasında əsərin əvvəlindən axırına qədər davam etdirir. Və hər dəfə suallar təkrar olunsa da, o, yeni, daha orijinal cavablarla oxucusunu təmin etməyə çalışır.

Təsəvvür edin; qeyri-qanuni uşaq dünyaya gətirmiş ana hansı hissləri keçirir? Həyatın gətirdiyi sürprizlər müxtəlif təbiətlidir. Kimsə nəyi isə təqdir edə bilər, kimsə təqdir olunanı inkar edə bilər. Bütün hallarda qadın sıxıntı içərisindədir. O, əgər qeyri-qanuni yolla dünyaya uşaq gətiribsə, onun hər hansı bir cavabı qəbul olunan deyil. Ən müxtəlif şəkildə cavabların qəbul olunan variantı yoxdur.

Şübhəsiz bu, haqsızlıqdır, ədalətsizlikdir. Və ən başlıcası, M.Soltanqızı bu haqsızlığı, bu ədalətsizliyi aradan qaldırmaq istəyir: "*Səni kimsə görməsin Qarşında bir zaman durur Sənə yeni tələ qurur Qüruruna yenilmədin Atasız bir övlada Nədən sahiblənmədin? Qorxun nədən? Düşündünmü? Qorxdun bu körpə yavru Taleyini dəyişər Arsızlar dünyasında Ayağına ilişər. Ona yetməz vaxt, zaman Buna bitməz bu acı Bir ömür vicdanınla Sorğu-sual edərsən Körpəni atdığın yerə Bəlkə yüz yol gedərsən O, məsum baxışların, Dilsiz yalvarışların Alovunda bir ömür Əriyərsən, bişərsən Bu da yetməz, gün ötər, Aylar, illər sovuşar Yaşını unutmazsan Onun doğum gününü Özünə yas tutarsan Onun yaşıdlarını Həmişə izləyərsən Kiməsə oxşadarsan Min bir xəyal qurarsan Peşmanlıq ömrünə Kəsilər hakim Beləcə dünyadan Köçən günədək Hər yerdə, hər zaman Bir çaşqın kimi Övladını gəzərsən*". Real həyati mənzərələrin təsviridir. Uşağından imtina etmiş ananın rahat olacağı bircə məqam ola bilərmi? O, harda özünə təskinlik tapar. O, özünü necə rahat hiss edə bilər? Bədənindən ayrılmış bir parçanı harada itiribsə, oraya min dəfələrlə qayıdar, oranı təkrar-təkrar yoxlayar. Əslinə qalsa, ana orada körpəsini yox, özünü axtarar, itirdiyi analıq hissini axtarar. Sözün həqiqi mənasında körpəsini itirən ana əlbəttə, öz günahı ilə itirən ana yaşının hansı mərtəbəyə çatmasından asılı olmayaraq, özünün ilkin hisslərilə axtarar, özünün ilkin analıq duyğuları ilə axtarar. Hətta faciənin böyüklüyünə baxın, demək, övladını itirmiş ana onu bəlkə də, bir aylığında, on günlüyündə itirmiş ana iyirmi, otuz ildən sonra da onun oxşarlarını gözü axtarar. Onun - yəni itirdiyi övladının görünüşünü min dəfələrlə yad olan insanların da üzündən oxumağa çalışar. Çox dəhşətli mənzərədir. M.Soltanqızının "Qadın" poeması insan mənəvi mühitinin bu cür real və qeyri-real görünə biləcək, əslində, tam həyati olan səhnələrinə işıq salır. Bütün məqamlarda hadisələri təsəvvürdə canlana biləcək səviyyədə təsvirə gətirir. Onun bir-iki kəlmə sözündən, misrasından biz anlayırıq ki, arxa planda nələr baş verib? Bir sözlə, qadın kimdir? düşündünmü - sualının qabağında hər birimiz özümüzü cavabdeh hesab edirik. Və biz düşüncə məkanında qadın mövqeyinin, bəlkə də, qadın böyüklüyünün və yaxud da qadın cılızlığının nə demək olduğunu özümüz üçün bir daha cavablaya bilirik. Bir sözlə, qadınlıq qarşısında məsuliyyətimizi hiss etmək istəyirik: "*Qadın kimdir? Düşündünmü? O anadır Min əzabla yuva qurar Çətinliyə sinə gərər Yuvasını qoruyar Azərbaycan torpağında uzun illər Səngimədi döyüşlər Müharibə amansızca Neçə-neçə analar, Neçə-neçə gəlinlər Dərdə, qəmə bələndi, Cavan yaşda başsız qaldı. Balasını təkbaşına böyütdü Sındırmadı özünü, yenilmədi həyata Dünyanın sərt üzünə sipər etdi canını Bərkidi sinəsində polad kimi ürəyi Ağlamadı, sızlamadı Sinəsinə daş bağladı Namusla, qeyrətlə böyütdü balasını Ağ tellər cığır açdı qara hörüklərində Ata həsrəti ilə qovruldu neçə canlar, Qanına qəltan oldu, nakam ölən cavanlar Düşmən doymadı qandan, Bitmədi qanlı savaş Fəqət bitib səbirlər... Qandan doyub analar, Dərddən bezib analar Qoparmayın yarasın Göz yaşları sel olar*". Bəli, övlad dağını yaşamaq, övlad ayrılığını yaşamaq ana üçün ən böyük dərddir. Artıq onun üçün göz yaşlarının nə demək olduğunu hər birimiz yaxşı bilirik. Ona görə də M.Soltanqızının analıq hisslərilə bağlı kədərli məqamları çözməyə, sonuncu işartılarına qədər təhlil etməyə heç lüzum da yoxdur.

Bir sözlə ananın mənəvi dünyasında xüsusi bir hakim düşüncə var. O, övladının zamana davam gətirə biləcək yuvasını görmək istəyir. Ana yalnız o zaman xoşbəxt ola bilir ki, o, övladını öz yuvasında xoşbəxt görə bilir: "*Qadın kimdir? Düşündünmü? Kasıb evli analar var Halalına qatmaz haram Əllərinin qabarı, alnının təri Bu incə məxluqun böyük hünəri Təki dağılmasın doğma yuvası Halallıqla böyüsün, doğma, əziz balası Mənəvi dünyasını qara bulud almasın Təhsildə ətrafından təki geri qalmasın Bu arzuyla bir ömür yuxu nədi bilmədi Doğma balalarıyçün ömrü fəda eylədi. Qadınların möhnəti bitib tükənən deyil İllər ilə qovuşsa da, ana yenə anadı... Əsrlər sovuşsa da, ana yenə anadı... Ana qəlbi əsəcək körpəsinin üstündə... Yaş üstə yaş gəlsə də, Övladı böyüsə də, Bir qorxu var canında, Ürəyində qanında Ana yenə anadı... Övladlar böyüməzmiş anasının gözündə...*" Beləliklə, M.Soltanqızının "Qadın" poeması sona çatır. Bu poemanın özəl bir keyfiyyəti var. Bu əsərdə əsas qəhrəman ana deyil, bu əsərdə əsas qəhrəman qadındır. Əlbəttə, böyük hərflə yazılan QADIN! Bu qadın qəhrəman da ola bilər, bu qadın möhtəşəm zəhmət sahibi ana da ola bilər, bu qadın şəhid anası da ola bilər, bu qadın ömrünü başa vuran tək-tənha bir insan da ola bilər. Müəllif bu əsəri çox da əvvəllər yazmayıb. Dörd il əvvəl qələmə alıb. Bu da o deməkdir ki, onun indiki yaşına qədər müşahidə imkanı olub. Qadınlığın mahiyyətini axıracan dərk etmək gücündə olub.

Bir sözlə, M.Soltanqızının "Qadın" poeması yalnız bir tərəfdən görünmür. Ən müxtəlif tərəflərdən onun möhtəşəm obrazı diqqəti cəlb edir. Bu da müəllifin qadın obrazını kifayət qədər axıracan müşahidə edə bilmək imkanı ilə bağlıdır.

**2022**